# İlham Əliyev: "Bu gün bayrağımız Qarabağda, Zəngəzurda dalğalanır, idman arenalarında da dalğalanır, əminəm ki, əbədi dalğalanacaq"

***Azərbaycan idmançıları növbəti uğura imza atdılar. Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında 99 medal qazanmaqla idmançılarımız Azərbaycanın güclü idman ölkəsi olduğunu bir daha sübut etdilər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın V İslam Həmrəyliyi Oyunlarında yüksək nəticə əldə etmiş idmançılarla görüşlərində də vurğulandı ki, Konyada əldə olunmuş nəticə Azərbaycanın idman ölkəsi olduğunu göstərdi.***



Azərbaycanda bütün sahələrdə olduğu kimi, idmanda da böyük uğurlar qazanılır. İdman siyasətinin düzgün müəyyən olunması sayəsində bu sahədə uğurlarımız ildən-ilə artır. Azərbaycan artıq beynəlxalq səviyyədə idman tədbirlərinin keçirildiyi bir ölkəyə çevrilmişdir. Fərəh hissi ilə qeyd etmək lazımdır ki, bu gün Azərbaycan beynəlxalq idman ailəsində layiqli yerini tutur. V İslam Həmrəyliyi Oyunlarında Azərbaycanın medal sıralamasında dördüncü yeri tutması bir daha bunu təsdiqlədi. Əlbəttə, Azərbaycan 2017-ci ildə keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarındakı nəticəni təkrarlaya bilmədi. Həmin İslamiadada ölkəmiz medal sayına görə 1-ci yeri tutmuşdu. Bununla belə, İslamiadada 281 idmançı ilə təmsil olunan Azərbaycan komandası 99 medal qazanmaqla ölkəmizin güclü idman potensialı olduğunu dünyaya sübut etdi. Qeyd edək ki, bunlardan 29-u qızıl, 36-sı gümüş, 34-ü isə bürünc medaldır. Avqustun 22-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın V İslam Həmrəyliyi Oyunlarında yüksək nəticə əldə etmiş idmançılarla görüşündə dövlət başçısı bildirdi ki, İslamiadada dördüncü yerə layiq görülmək çox böyük nailiyyətdir.

Ümumiyyətlə, Azərbaycan İslam Həmrəyliyi Oyunlarında təkcə idman nəticələri ilə deyil, həm də yüksək təşkilatçılığı ilə fərqlənir. Xatırladaq ki, IV İslam Həmrəyliyi Oyunları 2017-ci ildə Bakıda keçirilmişdi. İslamiadanın ölkəmizdə keçirilməsi Azərbaycanın həmrəyliyin, mədəniyyətlər və sivilizasiyalararası dialoqun təmin edilməsinə yönəlmiş dövlət siyasətinin məntiqi davamı kimi qiymətləndirilmişdi. V İslam Həmrəyliyi Oyunlarında dördüncü yerə layiq görülməyin çox böyük nailiyyət olduğunu vurğulayan dövlətimizin başçısı bildirdi ki, bu nailiyyət Azərbaycanın əvvəlki uğurlarının təsadüfi xarakter daşımadığını göstərdi: "Bildiyiniz kimi, beş il bundan əvvəl Bakıda IV İslam Həmrəyliyi Oyunlarında komandamız birinci yerə layiq görülmüşdür. Bu da təbiidir. Çünki öz doğma divarları həmişə idmançılara əlavə kömək göstərir. Bu dəfə isə çox gərgin mübarizə nəticəsində biz dördüncü yerə layiq görüldük. Onu da bildirməliyəm ki, oyunlarda ölkələrin ən güclü idmançıları iştirak edirdilər. Bizim idmançılarımız 99 medal qazanaraq, – onlardan 29-u qızıl medaldır, – bir daha ölkəmizin gücünü göstərmişlər. Yəni, bu, doğrudan da böyük nailiyyətdir".

IV İslam Həmrəyliyi Oyunlarında qazanılan uğurlar və idmançılarımızın inanılmaz qələbələri dünyaya məlumdur. Bu oyunlar Azərbaycanın potensialını, siyasətini, imkanlarını nümayiş etdirdi. Ona görə ki, İslam Oyunları təkcə idman yarışları deyil, həm də xalqlar arasında dostluğu və münasibətləri möhkəmləndirən mühüm amildir. Cəmi iki il ərzində həm Avropa, həm də İslam Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin sivilizasiyalararası dialoqa verdiyi növbəti töhfə kimi qiymətləndirildi.

Xüsusilə qeyd olunmalıdır ki, idmançılarımız uzun illərdir Azərbaycanı dünyada tanıdırlar. Prezident İlham Əliyev idman ictimaiyyəti ilə görüşlərində dəfələrlə bildirib ki, idman Azərbaycanın dövlət siyasətidir. İdman istənilən ölkənin qüdrətini əks etdirir, çünki beynəlxalq yarışlarda, Olimpiya oyunlarında ölkələrin reytinqlərinə nəzər saldıqda, adətən, inkişaf etmiş ölkələrin nümayəndələrinin daha yaxşı nəticə göstərdiyini görmək olar. Bu da təbiidir, çünki təlim-məşq toplanışlarının keçirilməsi, ümumiyyətlə, hazırlıq işlərinin qurulması, iqtisadi baza-bütün bu amillər mühüm rol oynayır. Təbii ki, burada əsas məsələ dövlət siyasətidir və Azərbaycan da bu ölkələrdən biridir.

Prezident İlham Əliyev V İslam Həmrəyliyi Oyunlarında fərəhli nəticələr əldə etmiş idmançılarla görüşdəki çıxışında Bakıda keçirilən İslamiadanın təşkilati məsələlərini də xatırlatdı: "Xatırlayıram, biz 2017-ci ildə o oyunları hazırlayarkən bir çox təşkilati məsələləri həll etdik. Hər bir ölkə bu səviyyədə oyunları keçirə bilməz. Konya Oyunları rəsmən Beşinci İslam Həmrəyliyi Oyunları sayılsa da, əslində, bu oyunlar cəmi dörd dəfə keçirilib. Birinci Oyunlar Səudiyyə Ərəbistanında, ikinci İndoneziyada, üçüncü Azərbaycanda, dördüncü isə Türkiyədə. Amma rəsmən bu, beşinci Həmrəylik Oyunları sayılır. Yəni, demək istəyirəm ki, oyunları keçirmək o qədər də asan məsələ deyil və burada Türkiyə tərəfi, əlbəttə, çox yüksək qiymətə layiqdir". Prezident əmin olduğunu bildirdi ki, idmançılarımız bu medalları qürur hissi ilə daşıyacaqlar: "Ancaq indi biz gələcəyə baxmalıyıq, bundan sonra Azərbaycan idmanının inkişafı ilə bağlı hansısa addımlar atılmalıdır".

Prezident İlham Əliyev görüşdə idman qurumlarının qarşısında növbəti tapşırıqlarını da verdi. Dövlət başçısı bildirdi ki, indi bütün idman qurumlarının əsas məqsədi Yay Olimpiya Oyunlarına hazırlıq olmalıdır. Məlumdur ki, Yay Olimpiya Oyunları iki ildən sonra start götürəcək. Buna görə də, Prezident İlham Əliyev tapşırdı ki, yaxın aylarda artıq hazırlığa başlamaq lazımdır, ondan sonra təsnifat turnirləri başlayacaq, komandamız formalaşacaq. Dövlətimizin başçısı vurğuladı ki, bütün idman qurumları burada da öz vəzifə borclarını bilirlər, yaxşı dərk edirlər və beləliklə, Yay Olimpiya Oyunlarında biz ölkəmizi layaqətlə təmsil edəcəyik.

Bundan başqa, dövlət başçısı uğur qazanmayan idmançılara da tövsiyəsini verdi. Onlara peşman olmamağı, qarşıda yarışların olduğunu diqqətə çatdırdı: "Mən onlara da deyirəm ki, peşman olmasınlar, hələ gələcəkdə bir çox yarışlar var. Sadəcə olaraq, Vətənə sevgi, öz peşəsinə sədaqət, yorulmaz fəaliyyət, hazırlıq lazımdır. Çünki hazırlıq olmadan heç bir nəticə olmur, nə siyasətdə, nə idmanda, nə həyatda. Siz artıq bir daha Azərbaycanın şöhrətini ucaltmısınız və necə ki, bu gün bayrağımız Qarabağda, Zəngəzurda dalğalanır, idman arenalarında da dalğalanır, əminəm ki, əbədi dalğalanacaq".

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***